# AZƏRBACAN RESPUPLİKASININ AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№1/38** **14 dekabr 2017-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında 2017-ci il 28 noyabr tarixində imzalanmış Əməkdaşlıq Sazişində nəzərdə tutulmuş müddəaların icrası haqqında**

Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında əlaqələrin genişləndirilməsi, maliyyə, iqtisadiyyat, mühasibat uçotu və audit üzrə kadrların hazırlanması və ixtisaslarının artırılması, maliyyə, mühasibat uçotu və audit sahələrində elmi tədqiqatların aparılması, qarşılıqlı məsləhətləşmə və ekspertizaların həyata keçirilməsi, informasiya mübadiləsinin təşkili, regional və beynəlxalq əlaqələrin inkişaf etdirilməsi məqsədilə

**QƏRARA ALIRAM:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası ilə Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) arasında 2017-ci il 28 noyabr tarixində imzalanmış Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin icrası ilə bağlı aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri:** Nəcəf Talıbov – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri

**İşçi qrupunun üzvləri:** Səbuhi Gülməmmədov – Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi
Elmira Behbudova – Kadr hazırlığı şöbəsinin müdiri
Zamin Hüseynov – Milli auditə dəstək və məcburi audit üzrə komitənin sədri, "MAK AZƏRBAYCAN LTD" MMC-nin direktoru
Abbasəli Qurbanov - Kadr hazırlığı və gənclərlə iş üzrə Komitənin sədri, "Analitik-Audit Konsaltinq" MMC-nin direktoru

2. İşçi qrupuna tapşırılsın ki, iki həftə meddətində Əməkdaşlıq Sazişindən irəli gələn vəzifələrin icrası istiqamətində Tədbirlər Planının layihəsini hazırlayıb təqdim etsinlər.
3. Bu Sərəncamın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**PALATANIN SƏDRİ** **V.NOVRUZOV**